**X.Y.ZAMANOVA**
*baş müəllim, dissertant*
**:https://orcid.org/0009-0003-1257-4634**

**Azərbaycan Texniki Universiteti**
(Bakı şəh., H.Cavid pr., 25)

**10.62021/0026-0028.2024.4.177**

# SABİR RÜSTƏMXANLI POEZİYASINDA TARİXİLİK KONSEPTİNƏ GEDƏN YOL

***Xülasə.*** *Azərbaycanın Xalq şairi Sabir Rüstəmxanlı nəsr yaradıcılığına bir qədər gec başladığından tarixi romanlarının hamısı müstəqillik dövründə yazılmışdır. Lakin bu o demək deyil ki, yazıçının tarixi mövzuya müraciəti ancaq bu dövrlə bağlıdır. Əksinə, yazıçının yaradıcılığında tarix konsepti əsas yerlərdən birini tutmuş və tarixi roman yaradıcılığına doğru uzun bir yol gəlmişdir. Belə demək mümkünsə, tarixi hadisələr onun həyatında da mühüm rol oynamışdır. Atası Xudu kişinin İkinci Dünya müharibəsi iştirakçısı olması onu ilk dəfə tarixə bağlayan amillərdən olmuşdur. Bu yol onun tələbəlik illərində və ədəbi fəaliyyətinin ilk illərindən başlayaraq indiki mərhələsində də davam edir. Hələ Yardımlı rayonundan üz tutaraq Bakıya gəldiyi və Bakı Dövlət Universitetində təhsil aldığı, tələbə ikən "Ədəbiyyat və incəsənət" qəzetində işlədiyi dövrdə doğma xalqının keçmişi və keşməkeşli taleyi həmişə onu düşündürmüşdür. 60-cı illərdə Azərbaycan ictimai həyatında və ədəbi prosesində gedən milli düşüncə oyanışı ona da öz təsirini göstərmişdi.*

***Açar sözlər:*** *Rüstəmxanlı, poeziya, tarixilik, konsept, milli düşüncə*

Akademik İsa Həbibbəyli S.Rüstəmxanlının bu illərdəki fəaliyyətində vətənpərvərlik amilini yüksək qiymətləndirərək yazır: *"Bu genişmiqyaslı formalardakı uğurlu çıxışları, faəl mövqeyi Azərbaycanda Sabir Rüstəmxanlının timsalında yeni tipli, milli düşüncəli, demokratik ruhlu, yetkin vətənpərvər bir gənc, yaradıcı şəxsiyyətin ərsəyə gəldiyini qabarıq şəkildə nəzərə çarpdırmışdır"* [1, s. 6]. Yazıçı İsa Hüseynov da bu fikirdədir ki: *"Mən Sabir Rüstəmxanlını gəncliyində şair kimi tanıyırdım. Onun vətənpərvərlik və milli ruhda yazdığı şeirləri bəyənirdim"* [1, s. 3-39].

Tədqiqatçı alim Q.Bayramov qeyd edir: "80-ci illərin ortalarından şairin milli vətəndaşlıq mövqeyi bu gün üçün tarix olan hadisələrin içinə atır. Bu, təkcə onun həyatında, fəaliyyətində deyil, yaradıcılığında da öz sözünü deyir. "Ömür kitabı" şairin vətəndaşlıq hisslərini bütün qabarıqlığı ilə üzə çıxarır. Meydan hərəkatında iştirakı və çıxışları, həlledici məsələlərdə milli və vətəndaşlıq mövqeyində dayanması, Azərbaycanın bugünkü və gələcək taleyində baş verən hadisələrdə rol alması şairin vətəndaşlıq mövqeyindən irəli gəlirdi. 1989-cu ildə "Azərbaycan" qəzetinin təsis edilməsi və burada xalqın haqq səsinə yer verməsi və milli azadlıq mübarizəsinin carçısına çevirməsi, demokratik düşüncə ilə yanaşı, xalqın tarixi keçmişini qoruyub saxlaması yazıçını vətəndaş-şair-publisist-yazıçı kimi formalaşmasını şərtləndirir. Müstəqillik dövründə də şairin həm ictimai proseslərdə yaxından iştirakı, deputat kimi fəaliyyəti onun tarixi kontekstdəki mövqeyinə yeni faktorlar əlavə edir [2, s. 132-175].

A.Mirseyid şairirin yaradıcılığı haqqında yazır: "Bir şair kimi yaradıcılığının ilk illərindən başlayaraq milli yaddaş motivləri əsas yer tutmuşdur. İlk şeirlər kitabı *"Tanımaq istəsən"də şairin milli vətənpətvərlik düşüncələri poetik şəkildə əks etdirilir* (Rüstəmxanlı, 1970). Kitab şairin "Vətən" şeiri ilə açılırdı. "Doğma ocaq" silsiləsindən çap olunan şeirlərində ("Yardımlı yollarında" (1964), "Xatirə qatarı" (1968), "Tanımaq istəsən" (1968), "Zirvənin dərdi" (1969) və s.) şeirlərində doğulub boya-başa çatdığı torpağı tərənnümünü, milli yaddaşın poetik şəkildə əks etdirildiyini görürük [3, s.6].

Xəlil Rza Ulutürk S.Rüstəmxanlı yaradıcılığı haqqında yazır: "Şair "Yaddaş" kitabında silsiləyə geniş yer verir. Bu silsilədə dərc edilən "Bir qarış vətən torpağı", "İlk ünvanım", "Əbədiyyət yolu", "Qonaq", "Yaddaş" və s. şeirlərində tarixə ekskurs etməklə milli yaddaşı oyatmağa çalışır və oxucunun diqqətini tarixə və hiyləgər düşmənə yönəldir. "Bir qarış vətən torpağı" (1978) şeirində şairin qan yaddaşı türk tarixinin qəhrəmanı Mete xanın *"bir qarış vətən torpağı"* üçün necə döyüşməsindən gedir. Doğrudur, şeirdə Mete xanın adı çəkilmir, əgər çəkilsəydi, bu şeir də yəqin ki, senzuradan keçib çap oluna bilməzdi. Şair burada Mete xanın "bir qarış vətən torpağı"nı necə xilas etməsini qan yaddaşına əsaslanaraq verir.

X.R.Ulutürkün S.Rüstəmxanlı yaradıcılığında tarixiliklə müasirliyi vəhdətdə götürməsi tamamilə doğrudur. Tarixi yaddaş Sabir Rüstəmxanlının poetik yaradıcılığında 70-ci illərin sonlarından başlayaraq ictimai funksionallıq qazanır; ictimai məzmun kəskinləşir, xalqın tarixində mühüm rol oynayan hadisələr və şəxsiyyətlərə müraciət olunur. "Gəncə qapısı" (1981), "Sağ ol, Ana dilim" (1983), "Qan yaddaşı" (1983) şeirlər kitabında milli ruh və düşüncə bir qədər də sərt və publisist şəkildə səslənir. "Sağ ol, Ana dilim" şeirində doğma dilinə *"Allahların, göylərdən gələn kişilərin, işıqdan doğan adamların müqəddəs dili, alpların-ərənlərin qəhrəman dili"* adlandırır. Bu dəfə də düşmənin müharibə etmək üçün çabaları boşa çıxır. Üçüncü dəfə düşmən hökmdarın hər dəfə geri çəkildiyini zənn edərək ondan boş qalmış daşlı-çınqıllı ərazini istəyir. Lakin bu dəfə hökmdar elçilərin sözünü kəsir [4, s. 4-10].

C.Yusifli bu haqqda belə yazır: "Bərdə üçün yazdığı "Qan yaddaşı" şeirində də şair yenidən tarixə müraciət edərək Nüşabə qalasını təsvir edir. Qalanın yarımçıq bürcündə *"boy atıb qalınlaşan zoğallığın içində"* bir uşağın oxuması şairin tarixə ekskurs etməsinə səbəb olmuşdur. Uşağın səsi qılınc kimi buradakı sükutu yararaq uzaq keçmişə aparır; o uşağın min illər əvvəl buralarda nələr olduğundan belə xəbəri yox idi. Hələ hərfləri belə bilməyən və tarix dərsi dinləməyən bu kiçik uşağın səsindəki haray keçmişdən, tarixdən xəbər verirdi. Uşağın səsindəki bu haray şairin qəlbini göynədir. Onun zoğalın budaqlarını qırıb ucunu itiləyərək ox düzəltməsi də qan yaddaşındakı keçmişə aparıb çıxarır. Uşağa yaxınlaşıb onun oxuduğu mahnının adını soruşur, uşaq özü də bilmir ki, bu hava nədir və nədən danışır. Şair isə bunu qan yaddaşına bağlayaraq "*Hansı hava dolanır //Bu uşağın başında? /Yəqin tarixlərin də //unutduğu həqiqət/\ çıxmır qan yaddaşlndan!",* – deyə tarixə müraciət edir. Tarix isə göstərir ki, uşağın oxuduğu bu mahnı keçmişin dərinliklərindən süzülüb qan yaddaşı ilə gəlir. Bu gün bizi yaşadan məhz bu qan yaddaşıdır [5, s. 71].

"Gəncə qapısı" şeirlər kitabında şairin tarixə müraciəti bir az da konkretləşir və yaxın tarixə müraciət edir.

Şair Gürcüstanın Kutaisi şəhəri yaxınlığındakı Gelati monastrında bu qapını görmüş və şeiri yazmışdır. *"Salam, Gəncə qapısı, Qürbətdəki qardaşım",* – deyə müraciət edən şair səkkiz əsr əvvəl vətənindən didərgin düşmüş qapı ilə canlı kimi danışır. Yağan qar, yağış belə "əllərinin qapı üzərindəki izini itirməmişdir". Şair tarixə müraciət edərək qapının buraya gəlib düşmə tarixini də verir. Qərblə Şərq arasında yerləşən yarım milyonluq Gəncə şəhəri daim iğtişaşlar məskəni olmuş, ancaq çox düşmənləri dəf etmişdir. Onun *"önündə cahangir də, kölə də"* ona səcdə qılardı, *"diz çökərdi".* Şair assosiativ olaraq keçmişi xatırlayır; indi nə "*Qurucu David var, nə də qapı oğruları",* ancaq Gəncə qapısı yaşayır. Şairin "qapı oğruları" deməsi tarixi olduğu kimi göstərməsindən və kəmfürsətlərin Gəncənin durumundan istifadə edərək qapını oğurlamasından irəli gəlir. Çünki Gəncə qapıları tarixi qaynaqlara görə, işğal nəticəsində aparılmamışdır, düşmən onu aparmağa haqq etmirdi. Gəncə zəlzələsindən istifadə edən düşmən şəhərə soxularaq Gəncə qapılarını qənimət kimi Tiflisə aparmışdılar. Şairin lirik məni Gəncə qapısını görərkən həyəcanlanır, ona məmləkətin ən qiymətli əşyası kimi yox, elə Vətənin özü kimi baxır, onunla danışır və nəfəs alır.

"Gəncə qapısı" arxetip şəklində şairin həmişəlik obraza çevrilir və şairin tarixi şüurunu keçmişə yönəltməklə yanaşı, bugünün mesajlarını da çatdırmaq üçün bir vasitə olur. "Salam, Gəncə qapısı" şeiri Gəncə qapısının gürcülər tərəfindən oğurlanan Gəncə qapısının taleyinə həsr olunub.

Gəncə və Cavad xan mövzusu S.Rüstəmxanlının poetik yaradıcılığının ən aktual mövzularındandır. Onu aktual edən Gəncənin tarixidir və Cavad xanın şəxsində düşmənə qarşı mübarizə aparmasıdır. Bu mübarizə Azərbaycanın simvoluna çevrilmiş və yadelli işğalçıların Azərbaycandan getməsi üçün örnək mübarizə simvoluna çevrilmişdir. Təsadüfi deyil ki, şair bu mövzuda müxtəlif şeirlər yazdıqdan sonra "Cavad xan" poemasını da qələmə almışdır. İlk adı "Sönmüş ocağın ağısı" olan bu poemada Cavad xanın Vətənin azadlığı uğrunda mübarizəsi tərənnüm olunur. Şairin bütün poetik yaradıcılığında tez-tez səslənən Xətai, Misri qılınc, Çənlibel, Heydərbaba adlarını da buraya əlavə etsək, mənzərə daha da aydın olar. Şair bütün sonrakı yaradıcılığında sanki bu poetik proqram üzərində hərəkət edir və ondan kənara çıxmır. Bu da şairin yaradıcılığında tarixi aspektlərin əvvəldən axıra tarixi kontekstdə ifadəsinə yol açmış olur. S.Rüstəmxanlı "Nəyə gərək belə qardaş" (1980) şeirində də yenidən tarixi mövzuya qayıdır. Bu dəfə şair vətəndaşlıq mövqeyi ilə çıxış edərək bəzi rayonlarda qədim abidələri uçuraraq daşını-divarını sökənlərə qarşı özünün etiraz səsini ucaldırdı. Şairə görə "milyon-milyon nəsilllər" gəlib keçsə də, "torpağın altında" və "üstündə" onların izi qalır. Onlardan qalan hər bir şey bir tarixdir, sənin vurduğun o külünglər isə birbaşa tarixə vurulur. S.Rüstəmxanlının "Yurdumun ən gözəl nəğməsi" (1982), "Ruhumuz sərhədsiz olduğu üçün" (1982), "Qopuz səsi, şaman duası" (1982), "Tarixi yaradanlar" (1983), "Anamın duası" (1983) və s. şeirlərində xalqın keçmişinə müraciət edərək onunla fəxr edir. Minillik tarixin hər anı, yurdun hər daşı, divarı şairə vətənin keçmişini xatırladır. Şair Vətən dedikdə o taylı-bu taylı Azərbaycanı nəzərdə tutur. Dağlıq Altay şairi Bilal Dimanova yazdığı "Qopuz səsi, şaman duası" şeirində daha böyük ictimai arealda düşünür və onun vətəni bütün türk dünyasını qapsayır. Bilal Dumanovun oxuduğu mahnını *"Tanrı nəfəsi tək"* və *"anasının duası tək"* özünə yaxın hesab edir. Onun səsini eşitdikcə "*qanı hayqırır", "gündoğan eşqi", "yürüş eşqi"*nin sədası gəlir. Türk xalqı ulu bir ulusdur, onun qolları çoxdur, bu qollardan biri də Altay türkləridir ki, *"şaman duasıyla, qopuz səsiylə"* daim qədim tarixini xatırladır (Rüstəmxanlı, 1986, s. 89). "Qan yaddaşı" şeirlər kitabını şairin vətən, yurd, yaddaş düşüncəsinin bir yerdə toplandığı poetik toplu kimi kimi dəyərləndirmək olar.

**Nəticə:** Beləliklə, bütün bu deyilənlərdən belə bir nəticəyə gəlmək olar ki, S.Rüstəmxanlının poeziyasında tarixilik, qədimlik, ulu yurd, Dədə Qorqud, Xətai adları tez-tez çəkilir və bu adlar şairi tarixlə bu gün arasında var-gəl etməyə sövq edir. Müasir həyatdan yazdığı şeirlərində də şair mütləq tarixdən nə isə oraya əlavə edir. Sumqayıt yeniyetmələrinə ünvanladığı "Ölən qorxumuz" (1988) şeiri məlum hadisələrə həsr olunub. "Şükür, unudulmayıb, yüz ilin o üzündə, itirdiyim bir nəğmə!", – deyə yenə də tarixi yada salan şair *"qeyrət bayrağını dalğalandıran"* gənclərin ruhunun qorxunu yenməsindən qürur duyur. Şair bir daha göstərir ki, bir xalqın ruhunu qəfəsə salmaq, onu sıxmaq olmaz, o ruh mütləq öz keçmişini göstərəcəkdir. "Ulu ruhları" daşıyan və neçə 37 yaşayan bir xalqın ruhu heç bir zaman başqasına boyun əyməz. Şair bu poetik mesajların kimə ünvanlandığını da sətiraltı eyhamlarla bildirir.

**Elmi yenilik:** Məqalədə elmi yenilik ondan ibarətdir ki, müəllif S.Rüstəmxanlı yaradıcılığını hərtərəfli öyrənərək, ona həm də şair müasirləri olan tədqiqatçıların və ədiblərin rəyləri əsasında qiymət vermişdir. Şair yaradıcılığı tarixi-vətənpərvərlik mövzusunda geniş oxucu kütləsinə təqdim edilmişdir. Şairin Cavad xan haqqında yazdığı tarixi poeziya gənc nəsil üçün örnəkdir, qəhrəmanlıq rəmzidir.

**Tətbiqi əhəmiyyəti:** Orta və ali təhsil müəssisələrində S.Rüstəmxanlının poetik yaradıcılığı öyrənilir, geniş oxucu kütləsi arasnda rəğbətlə qarşılanır və sevilir. Onun yaradıcılığı müasir Azərbaycan dünyasında misilsiz əhəmiyyətə malikdir.

### Ədəbiyyat

1. Həbibbəyli, İ. Xalq şairi Sabir Rüstəmxanlı: millilik, vətəndaşlıq və müasirlik // Xalq şairi Sabir Rüstəmxanlı (məqalələr məcmuəsi). – Bakı: Elm və təhsil, – 2021. – s. 3-39.

2. Bayramov, Q. Sabir Rüstəmxanlının poeziyası: təşəkkül və formalaşma dövrü// Xalq şairi Sabir Rüstəmxanlı (məqalələr məcmuəsi). – Bakı: Elm və təhsil, – 2021. – s. 132-175.
3. Mirseyid, A. Ruhumuzun rəsmi və ya Sabir Rüstəmxanlının çəkilməmiş portreti. – Ekspress, – 2010. 16-18 yanvar. – s. 6.
4. Ulutürk, X.R. Ön söz// Rüstəmxanlı S. Seçilmiş əsərləri. – Bakı: Şərq-Qərb, – 2004. – s. 4-10.
5. Yusifli, C. Sabir Rüstəmxanlı. Yaddaşın poetikası / C.Yusifli, – Bakı: Qanun, – 2006. – s.71.

**Kh.Y.Zamanova**

**The Path Leading to the Concept of Historicism in the Poetry of Sabir Rustamkhanli**

***Summary***

This article explores the factors that led the prominent Azerbaijani poet Sabir Rustamkhanli to the genre of historical novel. It is demonstrated that the writer has gone through a long process before turning to historical novel writing. In Rustamkhanli's literary thinking, there is a visible development before his works in the genre of historical novel. In his individual poems, the poet occasionally makes brief poetic excursions into history. Over time, he gradually dedicates more poems and works to historical themes.

***Key words:*** *Rustamkhanli, poetry, historicism, concept, national thought*

**Х.Я.Заманова**

**Путь, ведущий к концепции историзма в поэзии Сабира Рустамханлы**

***Резюме***

В статье исследуются факторы, которые привели выдающегося азербайджанского поэта Сабира Рустамханлы к жанру исторического романа. Показано, что писатель прошел долгий путь, прежде чем обратиться к написанию исторических романов. В литературном мышлении Рустамханлы прослеживается определенная эволюция до его произведений в жанре исторического романа. В отдельных стихах поэт время от времени делает краткие поэтические отступления в историю. Со временем он постепенно посвящает все больше стихотворений и произведений историческим темам. В этих стихах и поэмах поэт изображает и прославляет различные события нашей истории с гражданской точки зрения.

***Ключевые слова: С.****Рустамханлы, поэзия, историзм, концепт, национальная мысль*

*Rəyçi: filol.f.d., dos. K.Mehdixanlı*

*Redaksiyaya daxil olub: 22.11.2024*